1991-ci ildə, Sovet İttifaqının süqutundan sonra, onun keçmiş ərazilərində nəhəng siyasi, iqtisadi və sosial vakuum yarandı, buna da hərtərəfli yardım lazım idi. Bu hadisələrin sürətli tempi və yardımın lazım gəlməsini nəzərə almaqla, Avropa İttifaqı müstəliq ölkələr birliyi üçün texniki yardım proqramına başladı – TACIS (Technical Assistance to the Commonwealth of Independent States). Proqramın məqsədi yenicə müstəqillik əldə etmiş ölkələrin bazar iqtisadiyyatına keçid və demokratiyanın möhkəmlənməsinə dəstəyin verilməsi idi.

Sözügedən proqram Avropa İttifaqı tərəfdaşlıq və əməkdaşlıq anlaşmasının həyata keçirilməsini təmin edən əsas  vasitələri təqdim edirdi. Sonralar Avropa İttifaqı və tərəfdaş ölkələr arasında münasibət daha rəsmi və siyasi cəhətdən aktiv oldu. TACIS başlandıqda, texniki yardım ayrıca həyata keçirilirdi, sonralar isə, bu proqram tərəfdaş ölkələrlə, Gürcüstan da daxil olmaqla, mürəkkəb və sürətlə inkişaf edən əlaqənin hissəsi oldu. Proqramın məqsədi daha dərin siyasi münasibətlərin əsas məsələlərinin həll edilməsi idi.

Bir çox proqramın həyata keçirilməsi nəticəsində, TACIS Gürcüstanda vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatının inkişafında xüsusi rol oynadı. 1992-2006-ci illərdə Avropa Komissiyası bütövlükdə, TACIS hüdudlarında Gürcüstanda yüzlərlə layihənin həyata keçirilməsi üçün 131 milyona qədər yardım ayırdı. 2007-ci ildə TACIS proqramı Avropanın qonşu və tərəfdaşlıq alətini (ENPI) əvəz etdi.